# Bəşəri problemlər Bakıda müzakirə edildi

**Azərbaycan 2024-cü ildə bəşəriyyətin gələcəyi üçün taleyüklü məsələlərin müzakirə edildiyi mühüm bir tədbirə - BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi etməklə bir daha özünün beynəlxalq arenada ön sıralarda yer aldığını sübut etdi.**

COP29 dünyanın dörd bir yanından gəlmiş dövlət və hökumət başçılarını, alimləri, qeyri-hökumət təşkilatlarını və gənc fəalları bir araya gətirərək iqlim dəyişmələri ilə mübarizə üçün qlobal həmrəyliyə çağırışın rəmzinə




çevrildi. Bakı bu möhtəşəm tədbirə hazırlaşarkən Azərbaycanın beynəlxalq səviyyəli təşkilatçılıq təcrübəsi bir daha diqqət mərkəzinə düşdü. Aydın oldu ki, Azərbaycanın dünyaya açılan pəncərəsi olan Bakı yalnız coğrafi mövqeyi ilə deyil, həm də müasir infrastrukturu, peşəkar insan resursları və qonaqpərvərliyi ilə böyük tədbirlərin ideal məkanıdır.

**(davamı 9-cu səhifədə)**

(əvvəli 1-ci səhifədə)

COP29 gələcək nəsillərin taleyini müəyyənləşdirən qərarların qəbul edildiyi bir meydan oldu. Azərbaycan bu tədbiri yüksək səviyyədə təşkil etməklə planetimizin gələcəyinə biganə qalmadığını bir daha göstərdi. Dünya liderlərinin və ekspertlərin səsləndirdikləri çağırışlar, qəbul etdikləri qərarlar məhz Bakıda formalaşan səmimi müzakirə mühiti sayəsində reallığa çevrildi. İştirakçılar təkcə müzakirələrlə kifayətlənməyib Azərbaycanın zəngin mədəni irsi ilə tanış oldular. Paytaxtda keçirilən mədəni tədbirlər, qonaqların tarixi İçərişəhərdə dolaşarkən keçmişlə gələcək arasında hiss etdikləri duyğular, Azərbaycanın həm qədim, həm də müasir bir ölkə olduğunu gördülər. COP29-un uğuru Azərbaycanın beynəlxalq miqyasda nüfuzunu daha da artırdı. Bu konfrans yalnız iqlim problemlərinin həlli, həm də qlobal həmrəyliyin möhkəmləndirilməsi üçün mühüm addım oldu. Dünya Bakının simasında həm bir dost ölkə, həm də planetimizin gələcəyinə biganə qalmayan tərəfdaş gördü. COP29 vasitəsilə sübut etdi ki, miqyasına görə kiçik ölkə olan Azərbaycanın böyük hədəflərə nail olmaq əzmi var. Düzgün strategiya, güclü iradə və səmərəli əməkdaşlıqla bütün çətinliklərin öhdəsindən gəlmək mümkündür. Bakıdan yüksələn iqlim çağırışı birgə fəaliyyətlə gələcəyimizi qoruya bilərik mesajı verir.

COP29 çərçivəsində əldə olunan uğurlar tədbirin qlobal effektini bir daha sübut edir. Bu zirvənin ən mühüm nəticələrindən biri isə ildə 300 milyard dollarlıq iqlim dəyişmələri ilə mübarizə üçün maliyyə dəstəyi barədə qəbul edilən tarixi qərar oldu. Bu qərar yalnız iqlim çağırışlarına cavab deyil, həm də gələcək nəsillər üçün bir ümid işığıdır. Lakin belə bir nəticəyə nail olmaq asan olmadı. İnkişaf etməkdə olan ölkələrin daha ədalətli dəstək tələbləri ilə Qərbin üzərinə götürdüyü öhdəliklər arasında yaranan fikir ayrılıqları konfransın təzyiqini nisbətən qaldırdı. Bu gərgin mühitdə bəzi qüvvələr razılaşmanın alınmasına mane olmağa çalışsa da, beynəlxalq ictimaiyyət həmrəyliyi qorumağı və fikir ayrılıqlarını aradan qaldırmağı bacardı. COP29 bir tərəfdən müasir dünyanın çətinliklərini əks etdirsə də, digər tərəfdən qlobal birliyin həll yoluna olan inamını yenidən gücləndirdi.

COP29-da Azərbaycanın sədrliyi ilə Bakı dünya üçün yeni bir iqlim gündəminə imza atdı. Gərgin diplomatik səylərin və çoxtərəfli müzakirələrin nəticəsi olaraq, Bakı Maliyyə Məqsədi və karbon bazarları üzrə əldə olunan razılaşmalar qlobal gözləntiləri belə geridə qoydu. Bu mühüm nailiyyətlər planetimizin iqlim çağırışlarına qarşı mübarizəsində qətiyyətli dönüş nöqtəsinə çevrildi. Bakı Maliyyə Məqsədi 2035-ci ilə qədər inkişaf etməkdə olan ölkələrə 1,3 trilyon ABŞ dolları həcmində iqlim maliyyəsi etmək yeni qlobal hədəf olaraq müəyyənləşdirildi. Bu tarixi razılaşma COP29 sədrliyinin cəmi 48 saat ərzində apardığı intensiv və strateji diplomatik səylərin məhsulu idi. Xüsusilə az inkişaf etmiş ölkələrin və kiçik ada dövlətlərinin dəstəklənməsi məsələsi bu sənəddə xüsusi yer tutdu. Eyni zamanda maliyyə vəsaitlərinin əlçatanlığı və şəffaflığı təmin etmək məqsədilə konkret mexanizmlər də yaradıldı. Tədbirdə Azərbaycanın irəli sürdüyü COP Atəşkəs Çağırışı beynəlxalq ictimaiyyətin böyük dəstəyini qazandı. Tam 132 ölkə və 1200-dən çox təşkilat bu təşəbbüsə qoşuldu. Bakı bir daha dünyaya xatırlatdı ki, iqlim dəyişmələri, münaqişələr və humanitar ehtiyaclar arasında dərin əlaqələr mövcuddur və bunlar yalnız sülh və əməkdaşlıq vasitəsilə həll oluna bilər. Bu yanaşmanın kulminasiya nöqtəsi isə Bakı Sülh, Yardım və Bərpa Üçün İqlim Fəaliyyəti Çağırışının qəbul edilməsi oldu. Bu təşəbbüs çərçivəsində yaradılacaq Bakı İqlim və Sülh Fəaliyyəti Mərkəzi iqlim dəyişmələrinin yaratdığı humanitar böhranların öhdəsindən gəlmək üçün qlobal səylərin diqqətində olacaq.









COP29 Azərbaycanın sədrliyi ilə iqlim gündəminin maliyyə, investisiya və ticarətlə birbaşa əlaqələndirilməsində tarixi bir rol oynadı. Tədbirdə elan edilən Bakı İqlim Koalisiyası kiçik və orta sahibkarlıq subyektlərinin "yaşıl iqtisadiyyat"a keçidini asanlaşdırmağı hədəfləyir. Bu təşəbbüs bizneslərin iqlim dəyişmələrinə dayanıqlı modellər qurmasında əsas rol oynayacaq. Eyni zamanda COP29 çərçivəsində enerji saxlama, şəbəkələr, dəhlizlər və hidrogen texnologiyaları ilə bağlı irəli sürülən konkret öhdəlikləri 150 tərəf təsdiqlədi. Bu, gələcəyin enerjisinə doğru atılan əhəmiyyətli bir addımdır.

COP29 yalnız böyük layihələrdən ibarət deyildi. Rəqəmsal texnologiyalar sahəsindəki irəliləyişlər də diqqət mərkəzində idi. Tam 75 hökumət və rəqəmsal texnologiya sənayesinin 1100-dən çox üzvü iqlim dəyişmələri ilə mübarizədə rəqəmsal həllərin tətbiqi barədə bəyanat qəbul etdi. Bu, iqlim dəyişmələri ilə mübarizədə texnologiyanın gücünü nümayiş etdirən unikal bir təşəbbüs oldu. Bakı, həmçinin qlobal əməkdaşlıq üçün yeni çərçivələr təqdim etdi. Bakı Rəhbər Prinsipləri iqlim davamlılığını və insan inkişafını birləşdirən strateji bir sənəd kimi qəbul edildi. Bundan əlavə, İqlim və Səhiyyə üzrə Davamlılıq Koalisiyası yaradıldı ki, bu da iqlim dəyişmələrinin səhiyyəyə təsiri ilə bağlı mübarizəyə yeni bir baxış gətirir.

Göründüyü kimi, COP29 tədbiri yalnız müzakirə meydanı deyil, konkret nəticələrin əldə olunduğu bir platforma oldu. Bakıdan yayılan qlobal çağırış iqlim böhranı ilə mübarizədə həmrəylik, texnologiya və iqtisadi tərəqqinin vacibliyini bir daha vurğulandı. Azərbaycan təkcə öz xalqının deyil, bütün bəşəriyyətin gələcəyinə qayğı ilə yanaşdığını COP29 vasitəsilə bir daha sübut etdi. Prezident İlham Əliyevin müdrik rəhbərliyi və irəli sürdüyü vizyon sayəsində ölkəmiz dünyamızın qorunması uğrunda iqlim müzakirələrində tarixi nəticələrə imza atdı. COP29 Azərbaycanın qlobal miqyasda məsuliyyətli və səmərəli tərəfdaş olduğunu göstərən bir nümunə oldu. Azərbaycan dünyaya sübut etdi ki, düzgün liderliklə iqlim çağırışlarına qarşı həmrəyliyin yeni dövrü başlayır.

**Nurlan ABDALOV,**
**"Respublika".**




Respublika .- 2024.- 27 noyabr (№ 261). - S.1;9.